# Litvalı nazir müavini bölgədə mövcud vəziyyət barədə məlumatlandırılıb

Aprelin 26-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Litva Respublikasının xarici işlər nazirinin müavini Mantas Adomenas ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan və Litva arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyində duran aktual məsələlər, o cümlədən regionda cari vəziyyət müzakirə olunub.

Nazir Ceyhun Bayramov Azərbaycan və Litva arasında ikitərəfli səviyyədə siyasi, iqtisadi, ticarət, enerji təhlükəsizliyi, bağlantılar, mədəniyyət, humanitar və digər sahələrdə, çoxtərəfli səviyyədə isə Avropa İttifaqı (Aİ) çərçivəsində səmərəli əməkdaşlıq gündəliyinin mövcudluğunu qeyd edib. Ölkəmizin Aİ-nin Şərq Tərəfdaşlığı proqramı çərçivəsində həyata keçirilən uğurlu layihələrinin münasibətlərin inkişafına töhfə verdiyi diqqətə çatdırılıb. Nazir Ceyhun Bayramov iki ölkə arasında münasibətlərin inkişafında qarşılıqlı səfərlərin və təmasların əhəmiyyətindən bəhs edərək, siyasi məsləhətləşmələrin əlaqələrin daha da genişləndirilməsi üçün mühüm mexanizmlərdən biri olduğunu qeyd edib.

C.Bayramov postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində apardığı bərpa və quruculuq işləri, regionda nəqliyyat və kommunikasiyaların açılması, sülh gündəliyinin irəli aparılması istiqamətində göstərilən səylər barədə qarşı tərəfi ətraflı məlumatlandırıb. Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində atılan addımların Ermənistanın qeyri-konstruktiv mövqeyi və davamlı təxribatları ilə üzləşdiyi qeyd edilib. Laçın-Xankəndi yolunda qeyri-qanuni fəaliyyət barədə ətraflı məlumat verilərək, Azərbaycan tərəfindən sərhəd-buraxılış məntəqəsinin təsis edilməsinin şəffaflığı və təhlükəsizliyi təmin edəcəyi vurğulanıb.

Nazir müavini Mantas Adomenas Litvanın Azərbaycan ilə münasibətlərin daha da inkişaf etdirilməsində maraqlı olduğunu qeyd edib. Nazir müavini bölgədə sülh və təhlükəsizliyin təmin olunacağına inam ifadə edib, bu istiqamətdə Litva tərəfinin dəstəyə hazır olduğunu bildirib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan.- 2023.- 26 aprel.- S. 2.